# ORDAN-BURDAN



***

Noyabrın 19-da Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksində Pedaqoji Şuranın iclası keçirildi. İclasda bu tədris ilində təqaüdə çıxan Kompleksin coğrafiya müəllimi İbrahim Məmmədova uzun-müddətli səmərəli pedaqoji fəaliyyətinə, BSU Məktəb-Lisey Kompleksinin inkişafında xidmətlərinə görə təşəkkürnamə və hədiyyə təqdim olundu.

İ.Məmmədov: *"BSU-nun nəznindəki MLK-nın fəaliyyət göstərməsi orta ümumtəhsilin ali təhsilə inteqrasiya edilməsində əvəzedilməz rola malik olmasını əyani şəkildə bir daha sübut edir. Liseydə güclü müəllim potensialının olması sayəsində qısa vaxt ərzində böyük nəaliyyətlər əldə olunmuşdur. Sanki o, bu təcrübəylə bir neçə 10 ili qabaqlamışdır. Məzunlarımızın, əksəriyyətinin hər il ali məktəblərə daxil olmaları buna misaldır. Şagirdlərimiz böyük nailiyyətlər əldə etmişlər. Belə kollektivdə işləmək mənim üçün xoş idi".*



***

12 dekabr - Heydər Əliyevin anım günü ilə bağlı Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksinin şagirdləri divar qəzetlərinin xüsusi buraxılışını hazırlamış, Fəxri Xiyabanı, Ulu öndərin ziyarət etmiş, bədii-musiqili kompozisiya hazırlamışlar.



***



10 dekabr 2011-ci il tarixində Kompleksin müəllim və şagirdləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində dahi ədib Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti vəziri-Lənkəran" komediyasının yeni quruluşuna tamaşa etmişdilər. BSU-nun rektoru prof. K. M. Abdullayevin təşəbbüsü ilə reallaşan "Auditoriya+" layihəsi çərçivəsində şagirdlərin bu komediya ilə yaxından tanışlığına şərait yaratmışdır. M.F.Axundzadənin 200 illiyi münasibətilə səhnələşdirilmiş tamaşada milli kolorit, şən yumorla yanaşı, XVIII əsrdə hökm sürən xanlıq üsul-idarəsinə sarkazmla işarələr vurulur. Tamaşada əsas rolları xalq artisti Nurəddin Mehdixanlı, əməkdar artistlər Cəfər Namiq Kamal, Sabir Məmmədov, Kazım Həsənquliyev, Elxan Quliyev, Əli Nur, Mirzə Ağabəyli, Ayşad Məmmədov, Mətanət Atakişiyeva, Münəvvər Əliyeva, Firuz Xudaverdiyev, aktyorlar Əminə Babayeva, Şəhla Əliqızı, Şəlalə Şahvələdqızı, İlahə Həsənova, Aslan Şirinov, Əlvida Cəfərov, Elnur Qədirov, İlyas Əhmədov, Elnar Qarayev və başqaları oynamışlar. Yeni səhnə əsərinin quruluşçu rejissoru əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu, rejissoru Tural Mustafayev, quruluşçu rəssamı Rəşid Şərif, bəstəkarı xalq artisti Səyavuş Kərimidir. Tamaşa alqışlarla qarşılanmışdır.

## KOMPLEKSİMİZİN İSTEDADLI ŞAGİRDİ

12 dekabr 2011-ci il tarixdə Bakı Slavyan Universitetinin Məktəb-lisey Kompleksində Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə hamının diqqətini cəlb edən iştirakçı 6[c] sinif şagirdi Asayev Camal olmuşdur. Camalı biz fəal bir şagird kimi tanıyırıq. Həm gözəl səsə malikdir, həm rəngarəng əl işləri ilə rəsm sərgilərində iştirak edir. Biz sizləri Camalla daha yaxından tanış etmək istəyirik.

Camal 5 dekabr 1999-cu ildə anadan olub. 2006-cı ildə birinci sinifə gedib. İki nomrəli musiqi məktəbində 4-ü sinifdə oxuyur. Üzgüçülüklə məşğul olur, 2008-ci ildə Bakı çempionatında 2-ci yerə layiq görülüb. Voleybol və basketbol oynamağa da vaxt tapır. Rəssamlıq və ingilis dili ilə maraqlanır. Dərs alaçısıdır.





***

5-11 sinif şagirdləri fiziki tərbiyə dərsləri ilə böyük həvəslə məşğul olurlar. "Yüngül atletika", "Voleybol", "Gimnastika", "Jubok-sing Citsu", "Şahmat", "Basketbol" və digər idman bölmələrində də məşğulluq şagirdlərimizin sağlamlığının inkişafına böyük təsir göstərir. Şagirdlərimiz müxtəlif idman yarışlarında iştirak edərək birinci yerə layiq görülüblər. Fərid Maqsudov Asiya çempionu, Fərhad Atakişiyev Azərbaycan çempionu, Nazim həm Azərbaycan, həm də Asiya çempionu, Taleh Asiya çempionu və başqa şagirdlərimiz bu idman növlərində birincilik qazanıblar. Təbii ki, biz də sevinirik ki, idmanımızın inkişafında bizim şagirdlərimizin də rolu var.

BSU Məktəb-Lisey Kompleksi Şagird parlamentinin orqanı, 13 dekabr 2011, №1

# MLK-nın SƏSİ

## *Bakı Slavyan Universitetində və BSU Məktəb-Lisey Kompleksində tələbə və şagirdlərin iştirakı ilə keçirilən "BİR GÜNLÜK XƏLİFƏ" LAYİHƏSİNƏ HƏSR OLUNUR*












13 iyul 2000-ci ildə ümumilli liderimiz H. Əliyevin fərmanı ilə Bakı Slavyan Universiteti yaradılmışdır. Yaradılan ildən rektor, filologiya elmləri doktoru, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, prof. K.M.Abdullayevin təşəbbüsü ilə bir çox layihələr həyata keçirilmişdir. Bu layihələrdən biri də universitetdə təhsil alan, müxtəlif ixtisaslar üzrə peşəkar mütəxəssis olmağa hazırlaşan tələbələrin tələbə özünüidarəçiliyi-nə, yəni "Xəlifə Günü"nə cəlb olunmasıdır. İlk dəfə bu layihə 2002-ci il dekabrın 13-də həyata keçirilmişdir. Növbəti dəfə xəlifə olmaq tələbələrə 2005-ci ilin 13 may tarixində, 2007-ci il 13 apreldə və 2009-cu ilin 13 noyabrında nəsib oldu. Bu il "Bir günlük xəlifə" 2011-ci ilin 13 dekabr tarixinə təsadüf edir. Bir şeyi qeyd edək ki, bir qayda olaraq, "Bir günlük xəlifə" tədbiri Kompleksimizdə daha geniş keçirilir. Belə ki, Kompleksimizdə yalnız rəhbər vəzifələr deyil, hətta bir neçə fənn müəllimi də əvəz olunurlar. Müxtəlif illərdə keçirilən xəlifə günündə bir çox şagirdlərimiz fəal iştirak ediblər. Həmin şagirdlər həm məsuliyyətlə, həm də çox həvəslə öz vəzifələrini icra edirlər. Ənənəyə sadiq qalaraq, bu il də həmin tədbir Kompleksimizdə keçiriləcək.

## "PİS ŞAGİRD YOXDUR"



***-Telman müəllim, bilirik ki, bir günlük də olsa, Kompleksin idarəçiliyi şagirdlərimizə həvalə olunacaq. Sizin fikrinizcə, şagirdlər bu işin öhdəsindən gələ biləcəkmi?***

-"Bir günlük xəlifə günü" 3 dəfə liseyimizdə keçirilib və bu il ilk dəfə olaraq məktəb-lisey kompleksində keçiriləcək. Şagirdlərimiz çox istedadlıdır. Mən inanıram ki, həmin şagirdlər bu işin öhdəsindən layiqincə gələcəklər. Hətta bir neçə il bundan əvvəl xəlifə günü liseyimizdə vəzifə icra edən şagirdlər, indi universitetlərdə müəllim kimi işləyirlər. Bu da təbii ki, çox sevindirici haldır.

***- Telman müəllim əgər Sizə yenidən şagird olmaq imkanı verilsəydi, hansı səhvinizi düzəldərdiniz?***

- Əgər elə bir imkanım olsaydı, daha çox mütaliə edərdim. Mən belə fikirləşirəm ki, indiki dövrdəki kimi oxumağa şərait yaransaydı, daha çox kitab oxuyardım. Amma buna baxmayaraq, mən yenə də mütaliə edirəm. Çünki mən kitab oxuyanda mənəvi rahatlıq tapıram.

***- Məktəb illərinizdən yadda qalan bir hadisəni danışa bilərsinizmi?***

- Məktəb illərindən yadda qalan hadisə çox olub. Daha çox müxtəlif fənn olimpiadalarında iştirakım və 10-cu sinifdəki son zəng heç vaxt yadımdan çıxmır. Mən özüm rayon məktəbində oxumuşam, hərdən bizi meşəyə ağac əkməyə, üzüm dərməyə də aparırdılar. Yadda qalan hadisələr çoxdur.

***- Xəlifə günündə şagirdlər müəllimlərin vəzifəsini icra edəcəklər. Əgər Sizin əlinizdə şagird olmaq imkanı olsaydı, hansı sinfə qayıdardınız?***

- Əgər biz müəllimlərə şagird olmaq imkanı verilsəydi, 5-ci sinfə qayıtmaq istərdim. Çünki mənə elə gəlir ki, indi mən ingilis dilini 4-cü sinif səviyyəsində bilirəm. İngilis dilini, riyaziyyat və məntiqi yaxşı öyrənmək istərdim.

***- İllər uzunu biz görmüşük ki, Siz hamıdan tez gəlib, axşam da hamıdan gec evə gedirsiz. Amma "Xəlifə günü" sizin bu vəzifənizi şagird icra edəcək. Həmin günü Sizin evdə oturub dincəlmək istəyiniz nə qədər güclüdür?***

- Mən evdən çox məktəbdə dincəlirəm. Həmin gün mən işə gələcəyəm. Çünki 5-ci sinifdə dərsim var. Bəlkə, vəzifə icra edən şagirdlərdən gəlib mənim dərsimdə oturanlar da olacaq....

***- Telman müəllim, Sizin "Xəlifə günü" ilə bağlı xeyir-duanızı eşitmək istərdik.***

- Mən inanıram ki, şagirdlərimiz bu işi çox gözəl yerinə yetirəcək. Pis şagird yoxdur. Mənə elə gəlir ki, biz uşaqlarımızı yaxşı başa düşmürük. Bu xəlifə gününün olması, şagirdlərin bir günlük də olsa belə, vəzifələrimizi icra etməsi bizim sizi, sizing də bizi başa düşməyinizə şərait yaradacaq. Mən şagirdlərimizə inanıram! Hörmətli rektorumuzun "mən öz tələbəmdən də nə isə öyrənməyə çalışıram" kəlməsini mən də özümə deviz seçmişəm.

# 2011-ci ilin xəlifələri



## XƏLİFƏ FATİMƏ



- ***Təhsil aldığın müddətdə əldə etdiyin uğurlar?***
- Mən, Xudiyeva Fatimə, 2006-cı ildən BSU-nun Məktəb-Lisey Kompleksində oxuyuram. Hazırda 11-ci sinifdəyəm. Bu illərdə bir sıra uğurlarım olub. Belə ki, 2008-ci ildə "İlin şagirdi" nominasiyasını qazanmışam. Bir çox Avropa ölkələrində geniş yayılmış "English First" dil məktəbindən müxtəlif sertifikatlar almışam. "Kim? Harada? Nə zaman?" intellektual yarışlarında birincilik əldə etmişəm. Hazırda kompleksdə keçirilən "Bir günlük xəlifə" günündə direktor vəzifəsini icra etmək növbəti nailliyyətlərimin sırasındadır.
- ***Təşkilatçılığının səbəbi?***
- Bu işi sevməyim, insanlarla qarşılıqlı ünsiyyət qurmağım, elmlə, təhsillə bağlı çox şeyi məhz bu sahədə tətbiq etmək bacarığım mənim xarakterimdədir.
- ***Necə oldu ki, məhz sən xəlifə seçildin?***
- Təəccüblənsəm də, zənn edirəm ki, həyatda məsuliyyətli olmağım, dərslərimə mütəmadi hazır gəlməyim, təşkilatçılıq qabiliyyətimin olması, özümə inamım mənə əsas verir ki, belə bir vəzifəni icra edim.
- ***Təhsil aldığın müddətdə yadında qalan ən maraqlı hadisə ?***
- Kollektivlə keçirtdiyimiz bilik yarışmaları, tədbirlər MLK tarixində hamımız üçün ən unudulmaz və maraqlı hadisələr oldu.
- ***Sən "Fleks" proqramının qalibisən, növbəti dərs ilini ABŞ-da oxuyacaqsan, bu çoxlarının arzusudur. Hansı hisslər keçirirsən?***
- İmtahana gedəndə özümə yüz faiz əmin olmasam da, biliyimə çox inanırdım. Bunun üçün səbəblərim də var idi. Ailəmin dəstəyi və ən əsası ingilis dili müəllimim Tünzalə xanımla keçdiyim dərslər, öyrəndiklərim və məni həvəsləndirmək üçün onun dedikləri-bunlar hamısı məni daha da ürəkləndirirdi.
- ***Son olaraq nə demək istəyirsən?***
- Əvvəla, kompleksimizdə bizə yaradılan şəraitə görə rəhbərliyə, xüsusilə direktorumuz prof. T. H. Cəfərova və "İlin ən yaxşı müəllimi" Tünzalə Cəfərovaya minnətdarlığımı bildirirəm. Əminəm ki, mən Kompleksdən ABŞ-a təhsil almağa gedən yeganə tələbə olmayacağam. Məndən sonra hələ çox şagird bunu bacaracaq.



Təlim-tərbiyə işləri üzrə direktor müavini İsmaylov Fəxri, Xİ sinif şagirdi



Profil üzrə direktor müavini Sadıqlı Orxan, Xİ sinif şagirdi



Təmayül işləri üzrə direktor müavini, tədris kurslarının rəhbəri Fətəliyeva Fatimə, Xİ sinif şagirdi



Təşkilati işlər üzrə direktor müavini Tağızadə Nigar, Xİ sinif şagirdi



Rus dili – Rəhilə, Xİ sinif

**UĞURLAR ARZULAYIRIQ!**



Ədəbiyyat - Dilanə, X sinif



İngilis dili - Fərhad, XI sinif



Biologiya – Nicat, X sinif



Tarix – Tayfun, X sinif



Ədəbiyyat – Fidan, X sinif



Riyaziyyat –Tural, XI sinif

BSU Məktəb-Lisey Kompleksi Şagird parlamentinin orqanı, 13 dekabr 2011, №1







## BİR GÜNÜN QONAQLARI

6 noyabr 2011-ci ildə Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksində bir sıra Türkiyə və Kipr Universitetinin nümayəndələri və Bakı Slavyan Universitetinin professorları ilə kompleksin yuxarı sinif şagirdləri arasında görüşlər keçirilmişdir. BSU əməkdaşları ilə görüşdə Azərbaycan ədəbiyyatı kafedrasının dosenti, pedaqoji elmlər namizədi Akif Məmmədov, Bakı Slavyan Universiteti Ümumi Dilçilik kafedrasının müdiri, professor İlyas Həmidov iştirak etmişlər. Akif Məmmədov TQDK-nın test imtahanı ilə bağlı şagirdləri maraqlandıran suallara cavab vermişdir. Prof. İlyas Həmidov isə kompleksin rus bölməsinin 11-ci sinif şagirdləri ilə "Paremiyalar" (atalar sözləri) haqqında danışmışdır. Xarici qonaqlar Türkiyə və Kiprdə təhsil imkanları barədə məlumat vermişdir.

## "SLAVYANIN ASLANLARI"

Azərbaycan Respublikasının Fövqaladə Hallar Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin birgə qərarı ilə Bakı şəhəri üzrə "Gənc xilasedici və yanğınsöndürən" yarışı keçirilmişdir. Yariş 55 məktəb arasında keçirilmişdir. "Gənc ekspert" nominasiyasi üzrə hazırlaşmaq üçün movzular bunlardır:

-Fövqaladə hal nə deməkdir?
-Meşə yanğınlarının səbəbləri. Alovun yayılması və ona qarşı tədbirlər. Maddi ekoloji zərər.
-Yanğın zamanı insan davranışının psixologiyası.
-Meşə yanğınları təhlükəsi.
-Yanğın təhlükəsizliyi və pirotexnika.
-Yanğın zamanı davranış qaydaları.
-Əgər yanğın baş veribsə.
-İlk yanğınsöndürmə vasitələri.

2011-ci ilin noyabrın 28-də məktəbdaxili seçmə yarışları olmuşdur. 2011-ci il noyabrın sonu II mərhələ, rayondaxili və şəhər yarışları keçirildi. 2011-ci ilin dekabrında isə final yarışları olacaq. Yarışda Nərimanov rayonu 207 N-li məktəbin bazasında Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksinin hərbi rəhbəri Mədətov Mais İdris oğlunun rəhbərliyi ilə 7 şagirddən ibarət komandası da iştirak etmişdir. Komandamız verilmiş tapşırığı və Şən və hazırcıvablar yarışlarını rəqib komandalardan tez bir vaxtda 1,14 san ərzində yerinə yetirərək, eləcə də hazırcavablıqla 55 məktəb arasından 1-ci yerə layiq görülmüşdür. Böyük əzm və bacarıqla çalışan komandamıza növbəti mərhələlərdə də uğurlar arzu edir, qələbələrinin davamını diləyirik. Komandamıza QƏLƏBƏ arzulayırıq!



## "ÜÇRƏNGLİ BAYRAĞIMIZ"

Kompleksimizdə istedadlı şagirdlər çoxdur. Onların istedadının üzə çıxarılması üçün müəllimlərimiz əlindən gələni edir. Belə şagirdlərdən biri də kompleksimizin 8[a] sinif şagirdi Hüseynova Türkandır. Türkan dərslərində fəal olmaqla yanaşı Kompleksin ictimai işlərində də iştirak edir. Həmçinin bu istedadlı qızımız Təhsil Nazirliyi ilə İcra hakimiyyətinin birgə keçirdiyi "9 noyabr- Bayraq günü"nə həsr olunmuş inşa müsabiqəsində 3-cü yeri tutmuşdur. 2010-cu ildə Heydər Əliyevə həsr olunmuş inşa müsabiqəsində qalib olmuş və Kompleksin rəhbərliyi tərəfindən mükafatlandırılmışdır. Biz də Türkanı təbrik edir, ona gələcəkdə uğurlar arzu edirik. Həmdə fəxr edirik ki, Kompleksimizdə bu cür istedadlı şagirdlər təhsil alır.

## "ЮНЫЙ СПАСАТЕЛЬ"

*В национальном детском образовательно-оздоровительном центре "Зубренок" стартовали XIV Республиканский и IX Международный слеты юных спасателей-пожарных.*

Для участия в слетах в центр приехали около 200 ребят - команды всех областей Беларуси, а также представители России, Украины и других стран. В составе команды из Азербайджана на соревнованиях участвовал и ученик нашего Комплекса Джафарли Фаиг. Перед ребятами прошли показательные выступления роты Почетного караула Командно-инженерного института МЧС Беларуси.



